*Ülkər NİCATLI*

# *ZƏHRA*

**(Balaca şəhid Zəhra üçün)**

**Bax ürəyin xal yerindən,
Yarasının al yerindən,
Körpə dilin lal yerindən,
Bir misra çək, bir misra çək.**

**Bəxtim, düşsün daş başına,
Qar tez yağır yaddaşına.
Qələm batır göz yaşına,
Bir səhra çək, bir səhra çək.**

**Bir layla sərin üstünə,
Bu körpə qəbrin üstünə.
Allah, öz səbrin üstünə
Bir Zəhra çək, bir Zəhra çək**

# *YURDA AĞI*

**Allah yazdın məktubu,**
**Qayıdıb gələr üstünə.**
**Qurd kimi ulayan sözün**
**Quzu tək mələr üstünə.**

**Boş qabların üz-gözünü,**
**Cənab haray-həşir yusun.**
**Ver olmayan qeyrətini,**
**Bir az da mürdəşir yusun.**

**Təkcə bu daş, torpaq deyil,**
**Sən də - vətən, mən də - vətən.**
**Hər gecə məktub yazırıq,**
**Sən göyə, mən kəndə, vətən!**

Ədalət.- 2020.- 7 mart.